UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.135

SAFURA ƏHMƏDOVA*

# İNKLÜZİV CƏMİYYƏTİN İNKİŞAFINDA İNKLÜZİV TƏHSİLİN ROLU

*İnklüziv cəmiyyətin inkişafında inklüziv təhsil son dərəcə mühüm rol oynayır. Bu məqsədlə, məqalədə, inklüziv cəmiyyətin formalaşmasında və onun sonrakı inkişafında inklüziv təhsilin əhəmiyyəti təhlil edilmiş, sağlamlıq imkanları məhdud olan şəxslərin (əlillərin) təhsil almasının vacibliyi məsələsi araşdırılmışdır. Bundan başqa, məqalədə dünya üzrə müxtəlif tədbirlərin, müvafiq proqramların həyata keçirilməsinin inklüziv cəmiyyətin inkişafına verdiyi töhfələr də öz əksini tapmışdır.*

***Açar sözlər:*** *cəmiyyət, inklüziv təhsil, konvensiya, reabilitasiya, intellektual inkişaf.*

## Giriş

İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olanların ümumtəhsil məktəblərində tədrisi prosesini təsvir etmək üçün istifadə olunan bir termin olub, inklüziv cəmiyyətin formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb edir. Məhşur pedaqoq Vasili Suxomlinski deyirdi ki, "yaxşı müəllim - hər bir uşağın yaxşı insan olacağına inanan, uşaqlarla dost olmağı bacaran, uşaq sevincini və kədərini ürəyinə yaxın qəbul edən, uşaq ruhunu bilən və heç bir zaman nə vaxtsa uşaq olduğunu unutmayan insandır. Yaxşı müəllim - psixologiyanı və pedaqogikanı bilən, tərbiyə haqqında elmi bilmədən uşaqlarla işləmənin mümkün olmadığını anlayandır". Yuxarıda deyilənləri əsas götürərək, təhsil sisteminin əsas təməlinin məhz təhsilə mənəvi yanaşma təşkil etdiyini əminliklə qeyd etmək olar. Başqa sözlə, inklüziv təhsil anlayışı insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağa şamil edilsin [8, s.123].

## Əsas məzmun

İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindəndir və ümumiyyətlə, hər hansı bir ölkənin təhsil sisteminin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması məqsədini daşıyır. Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Onun əsas vəzifəsi məhdud imkanlara malik insanların peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır [7, s.7]. Bir sözlə, inklüziv təhsil aşağıdakı prinsiplərə əsaslanmalıdır:

1.İnsanın dəyəri onun qabiliyyət və uğurlarından asılı deyildir;
2. Hər bir insan hiss edə və düşünməyə qadirdir;
3. Hamının ünsiyyət qurmaq və eşitmək hüququ var;
4. Bütün insanlar bir-birinə ehtiyac duyur;
5. Həqiqi təhsil yalnız real münasibətlər kontekstində həyata keçirilə bilər;
6. Bütün insanlar həmyaşıdlarının dəstəyinə və dostluğuna ehtiyac duyur;
7. Bütün məktəblilər üçün bacardıqları işlə məşğul olmaq tərəqiyə yol aça bilər;
8. Müxtəliflik insan həyatını gücləndirir [6, s.141].

Sağlamlıq imkanları məhdud olan şəxslərin (əlillərin) daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün digər yaşıdları ilə bir yerdə olması daha çox önəmlidir. Uzun illər idi ki, təhsil sistemi uşaqları adi, normal və əlil, şikəst insanlara bölmüşdü. Beləliklə də faktiki olaraq təhsil almaq və öz imkanlarını sağlam uşaqlarla yanaşı həyata keçirmək imkanı olmayan, adi uşaqların oxuduğu müəssisəslərdə öz bacarıqalrını həyata keçirə bilmək imkanı olmayanlara qarşı etinasız münasibət göstərilmişdir.

Yuxarıda qeyd edilənlər bir daha sübut edir ki, inklüziv cəmiyyətin inkişafında inklüziv təhsil son dərəcə mühüm rol oynayır. Sağlamlıq imkanları məhdud olan şəxslərin (əlillərin) təhsil alması

xüsusilə vacibdir. Beləki, inklüziv təhsil, əlilliyi olanların yalnız təhsil hüquqlarını dəstəkləməklə bitmir, eyni zamanda onların cəmiyyətdə inteqrasiyasını, müstəqil şəkildə qərar vermə imkanlarını, hüquqlarını öyrətmək məqsədi də daşıyır. Lakin, təəssüf ki, çox zaman bu mümkün olmur. İnklüziv təhsil, fərdi, eləcədə, digər insanlarda olan fərqləri nəzərə almaqla, onların ehtiyaclarına uyğun müvafiq dəstək və təhsil xidmətlərini təmin edən, birlikdə öyrənmələrinə imkan verən təhsil yanaşmasıdır [8, s.124].

Qeyd etmək lazımdır ki inklüziv təhsil təkcə sağlamlıq imkanları məhdud olan şəxsləri (əlilləri) deyil, həmçinin fərqli ana dilləri olan, müxtəlif sosial-mədəni mühitlərə məxsus şəxsləri, imkansız və xüsusi ehtiyacı olan insanları da əhatə etmək məqsədi daşıyır. Başqa sözlə, inklüziv təhsil fərdin fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir.

Sağlamlıq imkanları məhdud olan şəxslərin həmyaşıdları ilə birlikdə təhsili hər kəs üçün səmərəli tədris formasıdır. Beləki, eyni sinifdə həyata keçirilən tədris prosesi təhsilverənləri iştirak edənlərə fərdi yanaşmağa sövq edir. Əlavə olaraq, müxtəlif araşdırmaların nəticələri göstərir ki, inklüziv sinifdə keçirilən dərslər fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin, şəxslər arasında qarşılıqlı anlaşma və hörmət hissinin inkişafına səbəb olur ki, bu da, sosial baxımdan ədalətli və ayrı – seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına töhfə verir. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən 2006-cı il dekabrın 13 – də qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiya mühüm əhəmiyyət kəsb edir. Beləki, bu Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir. Konvensiyanın 24 – cü maddəsinə əsasən, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil hüququnu tanımalı, ayrı-seçkiliyə yol vermədən bu hüququn həyata keçirilməsi üçün iştirakçı dövlətlər bütün pillələrdə inklüziv təhsil sistemini və əlilliyi olan şəxslərin fasiləsiz təhsil almaq imkanını təmin etməlidirlər. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin əlillik əlamətinə görə təhsildən kənarlaşdırılmamasını, onların digər insanlarla eyni əsaslarla inklüziv, keyfiyyətli və pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etməlidirlər.

Sağlamlıq imkanları məhdud olan şəxslərin həmyaşıdları ilə birlikdə təhsil alması istiqamətində digər vacib əhəmiyyət daşıyan sənəd kimi BMT-nin "Uşaq Hüquqları Konvensiyası"sını göstərmək olar. Sözügedən Konvensiyanın 28-ci maddəsi hər bir uşağın təhsil hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsi dəstəkləyir. Həmin maddədə qeyd edilir ki, "Təhsil, fərdin şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlarına və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata, ətraf mühitə hörmətin tərbiyə edilməsinə yönəldilməli, əlilliyi olanların digərləri ilə birlikdə təhsilə cəlb edilməsi xüsusilə nəzərə alınmalıdır" [7, s.10].

Ümumiyyətlə qeyd etmək lazımdır ki, məhz "Əlillərin hüquqları haqqında"Konvensiyanın qəbulundan sonra bütün dünyada sağlamlıq imkanları məhdud olan şəxslərin problemlərinin aradan qaldırılması istiqamətində adekvat işlər görülmüş, problemin həlli üzrə mühüm qərarlar qəbul edilmişdir. Müxtəlif beynəlxalq təşkilatlar bu istiqamətdə bir sıra tədbirlər, proqramlar hazırlamış və həyata keçirməyə başlamışdır.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq irqi, cinsi, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq qanunvericilik - ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. YUNESKO-nun rəsmi bəyanatında inklüziv təhsildən cəmiyyətdə özünə yer tapa bilməyən, cəmiyyət tərəfindən kənarlaşdırılan, təhsildə imkan bərabərsizliyindən əziyyət çəkən, təhsil almaqda çətinliyi olan şəxslər üçün yaradılmış təhsil prosesi və proqramı kimi bəhs edilir. YUNESKO-nun məlumatına görə, bu təhsil proqramı dövlətlərin öz ölkələrində öyrənmə yaşında olan bütün uşaqlar üçün müvafiq təhsil strategiyasının hazırlanmasını, bu strategiyaların planlı şəkildə həyata keçirilməsini və nəticələrinin müşahidəsini nəzərdə tutur.

YUNESKO inklüziv təhsilin əhəmiyyətini vurğulamaq üçün təhsil, sosial və iqtisadi əsaslandırma olmaqla üç səbəb irəli sürür. Təhsil əsaslandırması - tələbələrin fərdi xüsusiyyətlərinə və ehtiyaclarına uyğun təhsil proqramlarının hazırlanmasını nəzərdə tutur. Çünki dünya ölkələri təhsil standartına nail olmaq istəyir, lakin keyfiyyətli təhsilə nail olmaq üçün uşaqların ehtiyaclarına uyğun təhsil hazırlanmalıdır. Beləliklə, təhsildə imkan bərabərsizliyi aradan qaldırılır, şagirdlərin öyrənmə

potensialı üzə çıxır və onlar sosial həyatda özlərini daha inamlı hiss edirlər. Sosial əsaslandırma - uşaqların ədalətli və bərabər şəraitdə təhsil alması ehtiyacını ehtiva edir. İqtisadi əsaslandırma - bütün şagirdlərin birlikdə təhsil alması ehtiyacını ehtiva edir. Şagirdlərin müxtəlif tipli məktəblərdə təhsil alması böyük xərclər yaradır və təhsildə lüzumsuz xərclər büdcəsi yaranır. Yəni, qeyd edilir ki, şagirdləri məktəblərə deyil, məktəbləri şagirdlərə uyğunlaşdımaq lazımdır [7, s.11].

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı hələ 2004-cü ildən başlayaraq müxtəlif təşəbbüslər olmuşdur. Misal üçün**,** xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların inklüziv təhsilinin təşkili ilə bağlı 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası zamanı 15 ümumi və 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Bu da onu göstərir ki, sağlamlıq imkanları məhdud olan şəxslər (əlillər) üçün təhsil ölkəmizdə ən vacib vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur [3, s.12].

Hazırda ölkəmizdə müxtəlif inkişaf səviyyələri olan uşaqların bir yerdə oxumaq imkanı vardır. Əlil uşaqlar ictimailəşmə və uyğunlaşma prosesindən keçir və uşaqlar başqalarına hörmət və özünəhörmət anlayışlarını dərk edirlər. İnklüziv təhsilin əhəmiyyəti ondan ibarətdir ki, pedaqoqlar sosial vəziyyətindən, emosional, fiziki və intellektual inkişafından asılı olmayaraq xüsusi təhsilə ehtiyacı olan uşaqlarla böyük həvəs və sevgi ilə işləyirlər. Müəllimlər bu uşaqların ehtiyaclarına yönəlmiş psixoloji və pedaqoji texnikalar əsasında onlara şərait yaradırlar. Lakin, inteqrasiya təlimini həyata keçirərkən müəllimlər bir çox problemlərlə də üzləşirlər. Beləki, inklüziv təhsillə bağlı layihələrin icrası dövründə inklüziv təhsilin hüquqi cəhətdən tənzimlənməsində müəyyən boşluqların olması aşkar olunmuş və bu da ölkəmidə inklüziv təhsilin tamhəcmli tətbiqində bəzi çətinliklər yaratmışdır. Məsələn, sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması qaydalarının, həmçinin qiymətləndirmə testlərinin olmaması səbəbindən psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən rəy verilməsi zamanı çətinliklər yaranır.

Hazırda psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətinin əsas istiqaməti uşaqların təhsil imkanlarının olub-olmaması ilə bağlı seçim etməkdən ibarətdir. Lakin, uşaqların təhsil hüquqlarını təmin etmək üçün psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən onların təhsil ehtiyacları müfəssəl qiymətləndirilməli və hər bir uşaq üçün kompleks yanaşmanı təmin edən fərdi inkişaf planı hazırlanmalıdır. Bu səbəbdən də psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətində dəyişikliklərin edilməsi vacib əhəmiyyət kəsb edir [4, s.14].

Sağlamlıq imkanları məhdud uşaqların təhsilində növbəti çətinlik, inkişaf və ictimailəşmənin aktual problemlərinin həllində məktəblilərə birbaşa köməklik etmək, bütün şagirdlərə uyğun ümumi bir təhsil sahəsi yaratmaqdan ibarətdir. Çünki, hər bir fərdin özünü rahat və azad hiss etməsi önəmlidir. Əlilliyi olan bir uşağın tədris planını qurması və onu həyata keçirməsi əlbəttə çətindir. Bu işdə onlara psixoloqlar və müəllimlər kömək etməlidirlər. Effektiv təhsil sistemləri və proqramları üçün psixoloji dəstək müəllimlər üçün üçüncü çətinlik yaradan səbəbdir. Hal-hazırda effektiv təhsil proqramları üçün əsas ola biləcək yeni tədris metodları təklif edən bir çox innovativ müəllimlərimiz vardır. Bu işdə isə psixoloji və pedaqoji səriştənin olması ilə yanaşı, həm müəllimlərimizin, şagirdlərin və onlarının valideynlərinin də psixoloji maarifləndiriməsinin inkişaf etdirilməsi nəzərdən qaçmamalıdır [5, s.124]. Bundan başqa, inklüziv təhsil zamanı uşaqlara dəstəkləyici sistemin olması da çox vacib məsələlərdəndir. Bu işdə isə müəllimlərə, psixoloqlara və digər mütəxəssislərə yaxından kömək edə biləcək tərbiyəçilərin olmasını tələb edir. Bu işdə həmçinin valideynlərin fəaliyyəti də nəzərdən qaçmamalıdır. Valideynlərin dərslərin mahiyyət və məqsədini başa düşməsi, eləcə də övladının sosial uyğunlaşma prosesində uğur qazanması işində iştirakı əsas şərtlərdən biridir [4, s.27].

Bütün bunlara baxmayaraq inklüziv təhsilin tətbiqi istiqamətində ölkəmizdə mühüm işlər görülmüş, fəaliyyətlər davam etdirilmiş və 2015-ci ildən etibarən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlərin müzakirəsi və bu sahədə beynəlxalq təcrübələrin davamlı təhlili aparılmışdır. Bir sözlə, inkluzi təhsilin təşkili həmin ildən yeni mərhələyə keçmişdir. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi həyata keçirilmişdir. Nümunə üçün

qeyd edək ki, 2015-2016-cı tədris ilində sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inkluziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmış, inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı nəzərdə tutulmuş tədbirlər dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilmişdir [6, s.137].

2018–2024-cü illərdə "Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ölkəmizdə inklüziv təhsilin inkişafında xüsusi rol oynadı. Bu proqramın məqsədi, sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarət idi. Proqramda vurğulanır ki, inklüziv təhsil - uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir [6, s.138].

Hazırda sağlamlıq imkanları məhdud uşaqlar əsasən xüsusi məktəblərdə və xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunurlar. Digər tərəfdən, sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir. Beləki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" çərçivəsində aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, dövlət uşaq müəssisələrində yaşayan uşaqların 37,7 faizi xüsusi təhsilə olan ehtiyacları üzündən xüsusi internat məktəblərinə yerləşdirilmişlər. Regionlarda gözdən əlilliyi olan şəxs və ya eşitmə qabiliyyəti tam və qismən məhdud olan, eşitmə qabiliyyətini sonradan tam itirmiş uşaqlar üçün xüsusi təhsilin təşkil edilməməsi səbəbindən onlar Bakı şəhərində fəaliyyət göstərən xüsusi internat məktəblərində təhsilə cəlb olunmuşlar. Hal-hazırda ölkə ərazisində 65482 nəfər sağlamlıq imkanları məhdud uşaq vardır ki,. onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində müvafiq təhsil alır [6, s.139].

Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir [2, s.12].

Sağlamlıq imkanları məhdud uşaqların təhsil problemlərini öyrənmək, əlilliyi olan bir uşağa lazım olan komponentləri özündə cəmləyən inklüziv təhsil haqqında fikir mübadiləsi aparmaq olduqca məsuliyyətli işdir. Ona görə ki, söhbət hər bir uşağın öz hərəkətlərinin iştirakı və aktuallığını hiss edə biləcəyi, ehtiyacları və digər hallardan asılı olmayaraq hər bir uşağın öz potensialını tam şəkildə həyata keçirməsi, cəmiyyətə faydası və onun tamhüquqlu üzvü olmaq imkanı əldə edə biləcəyi inklüziv cəmiyyət yaratmaqdan gedir. Bu cür uşaqlara inkişaf etmək imkanı verilməlidir. Bundab başqa, sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsil, onlar üçün xüsusi inkişaf mühitinin yaradılmasını, adi uşaqların xüsusi təhsil standartları çərçivəsində təhsil alması üçün müvafiq şərait və bərabər imkanları təmin etməyi, reabilitasiya, müalicə, təhsil, təlim, inkişaf pozğunluqlarının düzəldilməsi və sosial uyğunlaşmanı təmin edir.Bu baxımdan, sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsil bu gün ən vacib və həll olunması gərəkli olan məsələdir. Əlilliyi və sağlamlıq imkanları məhdud uşaqların sayı daim artır və bu təhsil sistemində dəyişikliyə səbəb olur.

Ölkəmizdəki təhsil humanist xarakter daşıyır, yəni "insan həyatına və sağlamlığına, fərdi hüquq və azadlıqlara, şəxsin sərbəst inkişafına, qarşılıqlı hörmətin, əməksevərliyin, vətəndaşlıq, vətənpərvərlik, məsuliyyət və hüquqi mədəniyyətin inkişafına üstünlük verilir". İnklüziv təhsilin inkişafı üçün beynəlxalq təcrübələrin öyrənilməsi, təhlili və tətbiqi də nəzərdən qaçmamalıdır.

İnklüziv təhsil sistemini inkişaf etdirməklə və "hamı üçün cəmiyyət", hər kəs üçün "cəmiyyətimizin inkişafı" prinsipinə öz töhfəmizi verə bilərik.

**Nəticə**

Beləliklə, sağlamlıq imkanları məhdud uşaqların təhsil problemlərini öyrənmək, əlilliyi olan bir uşağa lazım olan komponentləri özündə cəmləyən inklüziv təhsil haqqında fikir mübadiləsi aparmaq olduqca məsuliyyətli işdir. Ona görə ki, söhbət hər bir uşağın öz hərəkətlərinin iştirakı və aktuallığını hiss edə biləcəyi, ehtiyacları və digər hallardan asılı olmayaraq hər bir uşağın öz potensialını tam şəkildə həyata keçirməsi, cəmiyyətə faydası və onun tamhüquqlu üzvü olmaq imkanı əldə edə biləcəyi inklüziv cəmiyyət yaratmaqdan gedir. Bu baxımdan yuxarıda əks etdirilənlər sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inklüziv cəmiyyətin inkişafının necə mühüm əhəmiyyət kəsb etdiyinin bariz nümunəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı / "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında". Bakı, - 2018.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Mənbə: http://www.president.az/files/future_az.pdf.
3. Azərbaycan Respublikasının "Məşğulluq haqqında" Qanunu. / Bakı,- 2001.
4. Abbasova Q.S., Hacıyev Z.C. / "Sosial fəlsəfə" Dərslik. Bakı, - 2001,Ayna,- 130 s.
5. Əlizadə H., Red.Zamanova E. / "Estetika"AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı,- 2007,Elm, - 380 s.
6. Ələkbərov U. K. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı,-2018. №1(61),- s.133-144.
7. Аверина Е.А. Интеграция инвалидов в общество: теоретическое осмысление проблемы./Е.А. Аверина// – Вестник Томского государственного университета. – Томск,- 2011, № (1) 13. – с. 5-11.
8. Алферова Г.И. Социализация и социальная адаптация ребенка-инвалида в условиях инклюзивного образования /Г.И. Алферова// Гуманитарные исследования. М: – 2013, №4 (48). – с. 120-126.


***Bakı Xoreoqrafiya Akademiyası maqistr***
***Email: safuraahmedova584@gmail.com***

**Safura Akhmadova**

## THE ROLE OF INCLUSIVE EDUCATION IN THE DEVELOPMENT OF AN INCLUSIVE SOCIETY

Inclusive education plays a vital role in the development of an inclusive society. To this end, the article analyzes the importance of inclusive education in the formation of an inclusive society and its further development, and also considers the importance of education for persons with disabilities. In addition, the article also reflects the contribution of various activities and relevant programs around the world to the development of an inclusive society.

**Keywords:** *society, inclusive education, convention, rehabilitation, intellectual development*

**Сафура Ахмадова**

**РОЛЬ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ИНКЛЮЗИВНОГО ОБЩЕСТВА**

Инклюзивное образование играет чрезвычайно важную роль в развитии инклюзивного общества. С этой целью в статье анализируется значение инклюзивного образования в формировании инклюзивного общества и его дальнейшем развитии, а также рассматривается значение образования для лиц с ограниченными возможностями здоровья (инвалидов). Кроме того, в статье также отражен вклад различных мероприятий и соответствующих программ по всему миру в развитие инклюзивного общества.

**Ключевые слова:** *общество, инклюзивное образование, конвенция, реабилитация, интеллектуальное развитие*.

.

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.06.2025**
**Son daxilolma tarixi:19.07.2025**